

# *Yəhya PAŞAZADƏ-70*

Hörmətli Yəhya müəllim!

Sizi - tanınmış şair-publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 12 mart 1955-ci ildə Ağcabədidə anadan olmusunuz. 1976-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmisiniz. Uzun illərdir şeir və publisistik yazılarla respublika mətbuatında çıxış edirsiniz.

"Bənövşə", "Ürəyim doludur bir sevgi ilə", "Dünya məhəbbətsiz yaşaya bilməz", "Sənə oxuduğum nəğmələr", "Pəncərəmdən baxır səhər", "Şimşəklər", "Ürəyimdən keçənlər", "Xoş gördük, Qarabağ, salam, qələbə" adlı şeirlər, bir çox bədii-publisistik kitabların müəllifisiniz. Siz Beynəlxalq "Qızıl misra" yarışının qalibi (2018) və Şahmar Əkbərzadə Beynəlxalq ədəbiyyat mükafatı laureatısınız (2023).

Siz hazırda Azərbaycan Yazıçılar Birliyi Qarabağ bölməsinin sədr müavini, "525-ci qəzet"in bölgə müxbiri vəzifəsində çalışırsınız.

Hörmətli Yəhya müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq!

**Azərbaycan Yazıçılar Birliyi**